*Professorlar:* **ARİF MUSTAFAYEV,**
**QÜDRƏT İSMAYILZADƏ**

## VİDA SÖZÜ

## OT KÖKÜ ÜSTÜNDƏ BİTƏR - DEYİB ULULARIMIZ

Aqil babaların dilində zərb-məsələ çevrilərək ötən nəsillərdən əmanət qalmış bu müdrik el kəlamı elə-belə yaranmamışdır. Onu insan ömrünə şamil edəndə fəziləti ölçü-biçiyə gəlməyən çox yüksək bir mənəvi dəyər örnəyi hasil olur.

Bu hikmət dolu el məsələnin məcazi məna çalarları sırasında ədəb-ərkanla bağlı əxlaqi dəyərlər önəmli yer tutur.

Şübhə yoxdur ki, nəsildən-nəslə ötürülən bu atalar sözü əzəl başdan təbiəti müşahidədən, onun törənişinin seyrindən yaranmış, daha sonra insan cəmiyyətinə tətbiq olunmuşdur. Ulu babaların təbiət hadisələrinə həssas münasibətindən qaynaqlanan bu qənaəti insanların əxlaq və davranışına təsir göstərmək, onların mənəvi aləminin cilalanıb zənginləşməsinə xidmət etmək məramı güdmüşdür.

Bu mənada bu günlərdə dünyasını dəyişib bizdən ayrı düşmüş vəfalı dostum Cavanşir Xalıq oğlunu xatırlayarkən bu düşündürücü el məsəlinin mənəvi-əxlaqi fəzilətləri bir daha yada düşdü.

Hər şeydən öncə, onu qeyd edim ki, son 50 ildə rastlaşıb yaxından tanıdığım dərin mənəviyyatlı dost-tanışlar arasında saf təbiətinə, sonsuz səmimiyyətinə, ədalətə söykənən nəcib əməllərinə, alicənab hərəkətlərinə görə Cavanşir müəllimin xüsusi yeri var idi.

El-obamızın dilbər guşələrindən olan Lənkəran diyarının ziyalı aləminə ağır itki üz vermişdir. Azərbaycanın aqrar tarixinin görkəmli tədqiqatçısı, ölkəmizdə qaçaq hərəkatının mahir araşdırıcısı, tarix elmləri doktoru Cavanşir Xalıq oğlu Hüseynov 2010-cu il mart ayının 17-də, baharın gəlişinə üç gün qalmış dünyasını dəyişmişdir.

Cavanşir müəllim 1934-cü il may ayının 10-da Lənkəran şəhərinin görkəmli ziyalı şəxsiyyətlərindən olan Xalıq kişinin ailəsində dünyaya gəlmiş, elə bu saf təbiətli, comərd insanın tərbiyəsi altında böyüyüb boya başa çatmışdır. Müdrik ağsaqqal səviyyəsinə ucalmış Xalıq müəllim özünə xas olan nəcib mənəvi keyfiyyətlərin hamısını: xeyirxahlıq, rəhmdillilik, hünər, qeyrət, şərəf, kasıba, yoxsula əl tutmaq, el-obanın, sonra da xalqının, millətinin təəssübünü çəkmə, vətənə sədaqət, haqqa-ədalətə söykənmə kimi əzəmi keyfiyyətlərin hamısını el qəhrəmanının adını daşıyan körpə Cavanşirin zərif ruhuna aşılamağa çalışmışdır. O da ata öyüd-nəsihətinə biganə qalmamış, bütün bu keyfiyyətləri özünün həyat amalına çevirmiş, ömrü boyu həmin öyüdlərə əməl etmişdir.

1952-ci ildə Lənkəran şəhəri 3 saylı orta məktəbi bitirən Cavanşir Xalıq oğlu həmin ildə o zamankı Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) tarix fakültəsinə daxil olmuşdur. 1957-ci ildə universiteti yüksək təhsil göstəriciləri ilə bitirən gənc Cavanşirdə Xalıq kişinin əyalətdə aşıladığı milli hisslər oyanıb pöhrə verməyə başlamışdır. Yüksək ixtisaslı mütəxəssis kimi yetişən Cavanşir Hüseynov həmin milli hisslərin təsiri altında elmi biliklərini artırmaq, tarixi həqiqətləri yerli-yataqlı öyrənib araşdırmaq qərarına gəlmişdir. Elə bu niyyətlə də o, Lənkəran rayonu Digah kəndindəki orta məktəbdə qısa müddət tarix müəllimi, sonra Lənkəran şəhəri 3 saylı orta məktəbdə dərs hissə müdiri vəzifəsində çalışandan sonra, 1962-ci ildə

Azərbaycan Elmlər Akademiyasının Tarix institutunda əyani aspiranturaya daxil olmuşdur.

1966-1971-ci illərdə o, həmin institutda kiçik elmi işçi vəzifəsində işləmişdir. O zamankı Sovetlər Birliyinin mərkəzi arxivlərində saxlanılan tarixi sənədlərlə yaxından tanış olduqca onun bəsirət gözü açılır, tarixi həqiqətlərin əslinə vaqif olurdu.

Cavanşir müəllim milli təəssübkeşlikdən irəli gələn bu idealına təkcə elmi fəaliyyətində, mətbu əsərlərində, namizədlik və doktorluq dissertasiyalarında deyil, həm də əməli işlərində, müəllimlik fəaliyyətində də dönmədən əməl etmişdir. Sonrakı illərdə o, ali məktəblərdə müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Onun vətəndaş mövqeyi, milli-mənəvi dəyərlərə, etnik ənənələrə sədaqəti əməli və elmi fəaliyyətinin bütün sahələrində aydın nəzərə çarpırdı.

Ötən əsrin 90-cı illərində ölkəmizdə müstəqillik, milli-dirçəliş uğrunda ümumxalq hərəkatı başlayanda həmin olayların önündə gedənlərdən biri də Cavanşir müəllim oldu. Qarabağ münaqişəsi və onunla bağlı baş verən olaylar zamanı Cavanşir müəllimin həssas qəlbi dünyanın gözü qarşısında törədilən ədalətsizliyə, cinayətkar əməllərə dözmür, ermənilıyə, erməni vandalizminə şərait yaradanların saxta, riyakar siyasətinə kəskin etirazını bildirməkdən çəkinmirdi. Bu ədalətsizliklərin qurbanı olmuş qaçqın və köçkünlərimizin acınacaqlı halına acıyanlardan, onlara əl tutanlardan biri məhz Cavanşir müəllim olmuşdur. Sonralar peyda olmuş bir dəstə dil pəhləvanlarından fərqli olaraq, o, sakitcə, heç kəsə, heç nəyi bildirmədən acınacaqlı hala düşmüş bu soydaşlarımıza əl tutur, rəhmdillik edərək şəxsi əmlakını, ev əşyalarını onlara bağışlayır, onların niskilli ovqatını dəyişdirməyə, maddi və mənəvi yaralarına məlhəm qoymağa çalışırdı. Biz onun bu xeyirxah, nəcib əməllərindən, Xalıq kişidən süzülüb gələn alicənab, comərd hərəkətlərindən xeyli sonralar xəbər tuta bilirdik.

O, bütün əməllərində, o cümlədən elmi fəaliyyətində ədalət meyarından çıxış edirdi. Azərbaycanda qaçaq hərəkatını tədqiq etməyə, onun sosial-siyasi motivlərini araşdırmağa başlayan zaman da o, özünün ədalət prinsipinə sadiq qalmışdır. Məhz bu səbəbdən də o, əsl qaçaqları ədalətsizliyə qılınc çəkən xalq qəhrəmanları, xalq intiqamçıları, xarici və daxili zülmkarların azğınlığını cilovlaya bilən mərd, mübariz xilaskar, yeganə ümidgah kimi səciyyələndirmişdi. Qaçaq hərəkatına dair onun bu prinsipial konsepsiyası Azərbaycan tarixşünaslığı üçün olduqca önəmli əhəmiyyət kəsb edir.

2005-ci ildən ömrünün sonunadək Cavanşir müəllim elmi fəaliyyətini BDU Tarix fakültəsi nəzdində fəaliyyət göstərən «Azərbaycanşünaslıq» ETM ilə bağlamışdır. Burada elmi tədqiqat işləri ilə daha intensiv və ciddi məşğul olmuş, doktorluq dissertasiyasını başa çatdırıb müdafiə etmiş, 2 monoqrafiya, 10-larla elmi məqalə dərc etdirmişdir. Onun təbiətinə xas olan həssaslıq, təmkin, səbr, dözümlülük, nəzakətli və mehriban davranışı iş yoldaşlarını heyran etmişdir.

Həyat onu çox tez-tez sınağa çəkirdi. Duz-çörək kəsdiyi «dostlarının» dönüklüyündən aldığı yaraların qövrü sağalmamış Tanrı onu, sanki, bir daha sınağa çəkirmiş kimi, övlad qubarına da düçar etdi. Sevimli, nakam balasının faciəli həyatı onun səhhətində əlavə çatlar əmələ gətirdi. Sinəsinə çökmüş bala dərdi aram-aram öz işini görməyə, bu məğrur insanı sındırıb qəddini bükməyə vadar etmişdir.

Son vaxtlar Cavanşir müəllim tez-tez yuxusunda bəxti kəm qızının onunla yenə də görüşə gəldiyini söyləyib qəbristanlığa üz tutar, əziz balasının məzarını ziyarət edərdi. Budur, yuxun çin oldu, Cavanşir müəllim, daha ruhun rahatlıq tapar, doğma balanın yanına köçdün, Tanrı dərgahında ruhlarınız bir-birinizə qovuşar.

Əcəl onu gözlənilmədən, qəflətən, həm də sakitcə yatdığı yerdə, şirin yuxuda olarkən yaxaladı. Ürək sözünü, vəsiət və nəsihətini deməyə macal vermədən, namərdcəsinə haxladı. Doğmaları, dost-tanışları ilə vidalaşmadan o, əbədiyyətə qovuşdu.

Cavanşir müəllim onu tanıyan dost-tanışların hamısının xatirəsində elə beləcə də, necə vardı, o cür də qəlbi xalqının sevinci, kədəri ilə döyünən, ələmli, mehriban və gülərüz qalacaqdır.